**Ə.B.HƏSƏNOV**
*ilahiyyat üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: garibekrem@hotmail.com*
**:https://orcid.org/0009-0003-3365-0747**

**AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu**
(Bakı şəh., İstiqlaliyyət küç., 26)

**10.62021/0026-0028.2024.4.138**

# ORTA ƏSRLƏR AZƏRBAYCAN POEZİYA MƏKTƏBİNİN ƏDƏBİ-ESTETİK UĞURLARI VƏ ONLARIN DAVAM ETDİRİLMƏSİ

***Xülasə.*** *Orta əsrlər Azərbaycan ədəbiyyatının istər ideya-məzmun, istərsə də forma-sənətkarlıq baxımından çoxəsrlik inkişafını, bu ədəbiyyatın başlıca istiqamətini, meyil və tendensiyalarını nəzərdən keçirsək, poeziyanın aparıcı rolu üzərində dayanmış olarıq. Dünya xalqlarının ədəbiyyatı tarixində Azərbaycan xalqının ədəbiyyatı həmişə öz zənginliyi və humanist ideyaları ilə seçilmişdir ki, burada əsas yük, əsas ağırlıq poeziyanın üzərinə düşmüşdür. Söhbət, əlbəttə, orta əsrlər Azərbaycan poeziyasından gedir və XIX yüzilliyədək, yəni bizdə realist nəsrin ilk nümunələri yaranana qədər poeziyanın aparıcı missiyası danılmaz bir həqiqətdir. Poeziyanın tükənməz gücü, yeni söz demək potensialı XIX əsrdə də, XX əsrdə də davam etmiş, dünya ədəbiyyatına bəxş etdiyi bədii əsərlərin böyük əksəriyyəti əsasən poeziya nümunələri olmuşdur. Bu fikri söyləyərkən biz ilk növbədə, dahi Nizami Gəncəvinin adını çəkməliyik. Çünki Nizami dünya ədəbiyyatı xəzinəsinə yüksək bədii dəyəri olan əsərlər bəxş etmiş böyük Azərbaycan şairi, dünya ədəbiyyatının ən qüdrətli romantik sənətkarlarından biridir. Daha dəqiq desək, "Xəmsə" müəllifi dünya poeziyasının Şekspir, Dante, Höte, Firdovsi, Nəvai və başqaları kimi böyük nümayəndələri ilə bir sırada dayanan, hətta bəzi xüsusiyyətləri ilə onlardan üstün olan ustad sənətkardır.*

***Açar sözlər:*** *şair, ənənə, Nizami, Nəsimi, Füzuli, poeziya*

**Giriş.** Orta əsrlər Azərbaycan poeziyasından söz açarkən, heç şübhəsiz, onu müxtəlif adlarla, terminlərlə səciyyələndirmişlər. "Klassik ədəbiyyat" termini bütünlüklə orta əsrlər poeziyasına aid edilmiş, həm lirik, həm də epik şeir nümunələri sadəcə "klassik ədəbiyyat" adlandırılmışdır. Təbii ki, bu anlayış doğru olsa da, tam və dolğun deyildir. Çünki "klassik ədəbiyyat" təkcə poeziya nümunələrini əhatə etmir, ədəbiyyatın klassik dövründə başqa janrlarda da əsərlər yaradılmışdır. Bəziləri isə orta əsrlər Azərbaycan poeziyasını "saray ədəbiyyatı" kimi təqdim etmişlər. Bu da doğru deyildir. Çünki sarayda yazıb-yaratmış şairlər saraydan kənarda yaşayan şairlərdən sayca az olmuşlar. Və "saray şairlərindən" heç biri saraydan kənarda yaşamış Nizami və Füzuli səviyyəsində böyük istedad sahibi ola bilməmişlər. Orta əsrlər Azərbaycan poeziyasını "islami poeziya" kimi səciyyələndirənlər də olmuşdur. Əlbəttə, klassik poeziyamız islami dəyərlərlə zəngindir və bu dəyərlərə Allaha, müqəddəs dinimizə iman gətirmiş hər hansı bir şairin yaradıcılığında təsadüf edilir. Orta əsrlər poeziyamızı sırf məhəbbət lirikası kimi qiymətləndirənlər də vardır. Doğrudan da, Azərbaycan poeziyasının həmin dövrünü məhəbbət lirikası olmadan təsəvvür etmək qeyri-mümkündür. Hətta deyə bilərik ki, kəmiyyət etibarilə məhəbbət mövzusu bütün digər mövzuları ötüb keçmişdir. Lakin bu mövzu kəmiyyət etibarilə üstünlük təşkil etsə də, bütün poetik yaradıcılıq yalnız onun üzərində qurulmamışdır, əks təqdirdə orta əsrlər Azərbaycan şeiri məhdud bir çərçivəyə qapanıb qalardı. Orta çağ Azərbaycan poeziyasını irfani poeziya kimi səciyyələndirənlər də tapılır, ancaq bu da doğru fikir deyildir, çünki irfan – təsəvvüf poeziyada yalnız müəyyən bir istiqaməti təşkil etmişdir.

**Əsas hissə.** Orta əsrlər Azərbaycan poeziyasını müəyyən istisnalarla divan ədəbiyyatı adlandırmaq olar. Məlumdur ki, Azərbaycanda şeir divanlarının əmələ gəlməsi islam dininin

yayılmasından çox sonralar baş vermişdir. Bizə məlum olan ən əski şeir divanı, yuxarıda da qeyd etdiyimiz kimi, XI əsr şairi Qətran Təbriziyə məxsusdur. Daha sonrakı illərdə Nizami Gəncəvinin şeir divanı olmuşdur (hərçənd ki, "Qaşlarım açıqdı, qəlbimdə qürur, Şeirimin divanı qarşımda durur" desə də, Nizaminin divanı bizə gəlib çatmamışdır). Daha sonrakı əsrlərdə Qazi Bürhanəddinin, İmadəddin Nəsiminin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin, Marağalı Əvhədinin, Şah Qasım Ənvarın, Bədr Şirvaninin, Nemətullah Kişvərinin, Məsihinin, Saib Təbrizinin şeirlər divanı yaranmışdır. Mərhum ədəbiyyatşünas, professor Əlyar Səfərli yazır: *"Divan ədəbiyyatı iki qola ayrılır: dünyəvi və dini-təsəvvüfi divan ədəbiyyatı. Bu ədəbiyyatda ərəb və fars ədəbiyyatının təsiri də qabarıq şəkildə özünü göstərməkdədir. Orta yüzilliklərdə mədrəsələrdə ərəb və fars dillərinin geniş şəkildə öyrənilməsinin divan ədəbiyyatının dil və üslubuna da təsir göstərməyə bilməzdi. ...Divan ədəbiyyatında məhəbbət mövzusu baş mövzu sayılır. Aşiq, məşuq və rəqib surətləri divan şeirində xüsusi yer tutur... Lakin divan ədəbiyyatı yalnız məhəbbət mövzusu ilə məhdudlaşıb qalmır. Nəsr ilə dini əsərlər, surnamə, minşəat, xirədnamə, nəsihətnamə, pəndnamə, saqinamə, qəzavətnamə, qisəsi-ənbiya, məqtəl, səyahətnamə, təzkirə, mənaqibnamə, elmi, tarixi əsərlər və cəngnamələr yazılır. Onların ya bir qismi şeirlə yazılır, ya da ki, əsərdə şeirlə nəsr növbələnərək ahəngdar şəkildə bir-birini tamamlayır. ...Divan ədəbiyyatında hər bir divan klassik şeir şəkillərindən ibarətdir və onlar da məzmunca fərqlənir: tövhid (Allahın varlığı və birliyinin tərifi), minacat (Allaha yalvarış, Allaha duaetmə), nət (peyğəmbərin tərifi), mədhiyyə (bir şəxsin öyülməsi), fəxriyyə (şairin özünü öyməsi), həcviyyə (bir şəxs və əşyanı həcv etmək), mərsiyə (ağı), lüğəz (şeir-tapmaca), müəmma (insan adları tapmacaları), tarix (əbcəd hesabı ilə il bildirmək) və s"* [11, s. 6-9].

Göründüyü kimi, orta əsrlər Azərbaycan poeziyasının əsas tərkib hissəsi divan ədəbiyyatı olmuşdur, bizim görkəmli, dünya şöhrətli klassiklərimiz divan ədəbiyyatı ənənələri yaratmış, bu ənənələr XIX yüzilliyə qədər ardıcıl şəkildə davam etmişdir. XIX yüzillikdə isə bu ənənə zəifləmişdir, yalnız Qasım bəy Zakir və Seyid Əzim Şirvaninin şeirlər divanı olmuşdur.

Şeir divanlarının özünəməxsus tərtib prinsipləri, qaydaları mövcuddur. Şeir divanları, əsasən, dibaçə ilə başlanır. Dibaçə – ərəb sözüdür, müqəddimə deməkdir, orta əsrlərin Yaxın və Orta Şərq xalqları ədəbiyyatlarında divanların, əlyazma kitablarının əvvəlində verilən giriş sözüdür. Hər bir dibaçədə şairlər sözün mənşəyi ilə bağlı fikirlərini izhar edir, sənət və sənətkarlıq məsələlərindən söz açırlar. Sonra dini mövzular gəlir (tovhid, minacat, nət). Bundan sonra isə əski əlifba sırası ilə düzülən qəzəllər, rübailər, qoşabeytlər, təkbeytlər, qitələr, tərkibbəndlər, tərcibəndlər, müxəmməslər, mürəbbelər, müsəddəslər, müstəzadlar gəlir.

Divan ədəbiyyatının əsas mövzusunu, öncə qeyd etdiyimiz kimi, məhəbbət və eşqin tərənnümü təşkil edir. Yuxarıda Füzulinin Türkcə divanını açan qəzəlin geniş şərhini vermişik. Eşqin tərənnümünə, divan ədəbiyyatının bütün nümayəndələri kimi, Nəsiminin də qəzəllərində rast gəlirik:

*Könlümün şəhrini çün kim, eylədi yəğmayi eşq,*
*Saldı canım mülkünə şurü şərü qovğayi eşq.*
*Çaxdı sirrim aləmə, əsrarımı faş eylədi,*
*Halıma həmdəm olandan dünyada sevdayi eşq.*
*...Eşq ilə hərdəm, Nəsimi, seyr edirsən kuhi-Qaf,*
*Sənsən ol ali məqamda şəhpəri-Ənqayi-eşq.* [5, s.18]

Nəsiminin bu qəzəlində yeni, orijinal mənalar, təfsirlər diqqəti cəlb edir. Əgər Füzulidə eşqin daha çox fəlsəfi mənası açıqlanırsa, ümumiləşdirmə məkanı genişdirsə, Nəsimidə konkret məqamlar diqqəti cəlb edir: eşq aşiq könlünün şəhrini yəğmalayıb, onun can mülkünə qovğa salıb. Sirrini aləmə faş eyləyib, aşiqdə namusu-nam qoymayıb, rüsva edib onu. Amma üçüncü beytdən sonra eşqə məzəmmət, onun ucbatından aşiqin rüsvayi-eşq "mərəkəsi" bitir, eşqin

qaimməqam, rəhbər missiyası, humayi-laməkan olması, Aşiqin bu eşq ilə Kuhi-Qaf mənzilinə yetməsi, ali məqam qazanıb əfsanəvi Ənqa quşunun şəhpərinə çevrilməsi təsvir olunur.

Klassik poeziyada ifadə olunan eşq və məhəbbətin məzmunu, xarakteri haqqında çox maraqlı fikirlər söylənib və bu fikirlərin əksəriyyəti Füzuli eşqi ilə bağlıdır. Akademik Məmməd Cəfər yazır: *"Füzuli sevir, Füzuli düşünür deməkdir. Aşiq Füzuli ilə mütəfəkkir Füzuli, ancaq vəhdət halında alındığı zaman onu duymaq olar. Füzuli başqa cür dərk edilə bilməz"* [8, s.74]. Bu fikir Füzuli eşqinin təkcə aşiq-məşuq münasibətlərini ifadə etmədiyini, həm də rasional məna kəsb etdiyini açıqlayır. Görkəmli ədəbiyyatşünas, professor Mir Cəlal isə yazırdı: *"Füzuli eşqinin "qeyri-adiliyi" ancaq bir mənada düzdür. Bu eşq, adi insanın deyil, çox yüksək, daxili aləmi etibarilə çox zəngin bir simanın, nadir bir şəxsiyyətin eşqidir. Odur ki, hər adam bu qəlbin "sirlərinə" vaqif ola bilməz"* [1, s. 34].

Füzuli poeziyasında EŞQ və AŞİQ sözləri daha çox hallanır və "Leyli və Məcnun" poeması da daxil olmaqla bu iki söz olmadan Füzulinin məhəbbət lirikasını təsəvvür etmək mümkün deyildir. Füzulişünaslar Füzuli eşqinin real, yaxud qeyri-adiliyi barədə mülahizələr söyləmişlər, bəzən bu eşqin sırf Tanrıya, bəzən də Yer gözəlinə aidiyyətini qeyd etmişlər. Əlbəttə, Füzulinin qəzəllərində təsvir olunan eşq o qədər qeyri-adidir ki, hər iki mülahizə özünü doğruldur, yəni Tanrıya məhəbbətlə gözələ məhəbbət vəhdətdədir. Bu da Füzulini ürfan şairi kimi də səciyyələndirir.

Füzulinin "Aşiq" rədifli bir qəzəlinə müraciət edək. Bu Aşiq hakim ictimai normalara, köhnəlmiş adət və əxlaqa müxalif bir obrazdır. Füzulinin həmin "Aşiq" rədifli qəzəlində Aşiqin və aşiqliyin mahiyyəti öz təcəssümünü tapmışdır. Mərhum dilçi, həm də füzulişünas, professor Samət Əlizadə qəzəli şərh etmişdir. Alim qəzəlin birinci beytinin şərhində yazır:

*Olur rüxsarına gün, ləlinə gülbərgi tər aşiq,*
*Sənə əskik deyil, göydən yağar, yerdən bitər aşiq.*

(Üzünə günəş, qırmızı dodaqlarına təzə gül yarpağı aşiq olur, sənin üçün aşiq əskik deyil: göydən yağar, yerdən bitər) [3, s.128].

Divan ədəbiyyatındakı Aşiq obrazının səciyyəvi xüsusiyyətlərini Füzuli irsinin tədqiqatçısı, filologiya elmləri doktoru Gülşən Əliyeva-Kəngərli daha dəqiq şərh edir. O, füzuliyanə məhəbbətin səciyyəvi xüsusiyyətlərini və motivlərini on iki bənddən ibarət bir siyahıda toplayır [2, s. 63-64].

Gülşən Əliyeva-Kəngərli "Çağdaş poeziya və klassik irs" monoqrafiyasında müasir poeziyamızda Füzuli ənənələri mövzusuna toxunur və dahi şairin təsir dairəsinin hüdudlarını müəyyənləşdirir. Alim yazır: *"Ölməz Füzuli öz bəşəri düşüncələri ilə 70-90-cı illər Azərbaycan poeziyasında növbəti həyatını yaşayır. Füzulini bu poeziyaya yaxınlaşdıran, sevdirən və əsas ilham qaynaqlarından birinə çevirən ilk növbədə, Füzulinin ilahi məhəbbətidirsə, ikinci sırada şairin heyrətamiz bəşəri kədəridir"* [2, s.106]. Gülşən xanım "Füzuli, hər şeydən əvvəl, İnsan aşiqi, İnsan vurğunu olmuşdur" tezisini irəli sürür. Füzulinin insandakı gözəl sifətləri, yüksək əxlaqi keyfiyyətləri təbliğ etdiyini nəzərə çarpdırır və 70-90-cı illər poeziyasında da şairlərimizin əsl insan axtarışlarını təqdir edir. Bu mənada Məmməd Araz, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Vaqif Bayatlı Odər kimi şairlərin poetik yaradıcılıqlarında Füzuli ənənələrinə necə sadiq qaldıqlarını izləyə bilirik. Müəllif yazır: *"Füzuli poetik fəlsəfəsində Ölüm – Həyata, canlı insanlara xidmət etməsi ilə səciyyəvidir. Ölüm görkdür. Hər bir həyat prosesinin sonu olduğunun göstəricisidir. Buna görə də ölümü həmişə nəzərdə tutmaqla həyatı gözəlləşdirmək mümkündür"* [2, s.125].

Gülşən xanım Füzulinin ölümlə bağlı poetik fikirlərinin müasir poeziyada da əks-səda tapdığını, şairlərin bu mənada Füzuliyə ruhən yaxın olduqlarını isbata yetirir. XX əsr Azərbaycan şairlərinin əsərlərindən gətirilən nümunələr də alimin bu fikirlərinin doğruluğunu bir daha təsdiq edir. Məsələn, Vaqif Bayatlı Odər yazır:

*Ölsəm, ölsəm,*
*bir də min il sonra dirilsəm,*
*bu dünyada hər şeyin sonunu bilsəm.* [10, s. 319]

Təxminən eyni duyğuları Vaqif Səmədoğlu belə ifadə edir:

*Ölsəm, dostlar, tabuta yox,*
*Beşiyə qoyun məni.* [12, s. 25]

Yuxarıda adlarını sadaladığımız digər şairlərin də yaradıcılığında "ölüm"ün oxşar baxış bucağından mənalandırıldığı misralar yetərincədir.

Professor Yaşar Qarayev yazır: *"Bütün klassik tarixi boyu, demək olar ki, ta XIX əsrə qədər poeziyamızın tipik tragik qəhrəmanı aşiqdir. Hakim ictimai normalara, adət və əxlaqa məğrur müxalifət təşkil edən aşiq cəmiyyətdə mənəvi mübarizədə eşqi və vəfanı da həqiqi bir qəhrəmanlıqla, kamal və hünər səviyyəsinə qaldıra bilir. Şərqdə məhəbbət uğrunda fədakarlıq, xüsusən, Məcnunla şöhrət tapır. Prometey və Məcnun dünya ədəbiyyatında iki ən böyük fədai və iki ən böyük əzabkeşdir. Prometey klassik Qərb tragediyası üçün tipik fəlsəfi qəhrəmandır, Məcnun isə Şərq bədii-fəlsəfi fikri, klassik Şərq poeziyası üçün ən doğma bir surətdir, Şərqdə şəxsiyyət azadlığı ideyasının parlaq mücəssiməsidir"* [13, s.50].

Ümumiyyətlə, şəxsiyyət azadlığı problemi klassik Azərbaycan poeziyasında ən mühüm və ən aparıcı problemlərdən biri olmuşdur. Lirik şeirlərdə Aşiqin kədəri, nisgilli, romantik duyğuları, Cananın-Məşuqun gözəlliyinə pərəstiş, məhəbbətə ilahi bir qüvvənin təcəssümü kimi heyrət etmək – bu təkcə Füzulidə deyil, bütün klassik şairlərimizin lirikasından qırmızı bir xətlə keçir. Lakin Aşiq obrazını təkcə məhəbbət və eşqin tərənnümü ilə məhdudlaşdırmaq olmaz. Klassik Aşiq obrazının başqa bir tipi də Aşiq-Filosofdur. Əgər Aşiq-Məcnunluq insan hisslərinin aliliyini təsdiq edirsə, Aşiqin filosof tipi ağlın qüdrətini nümayiş etdirir. Bunu biz Nəsimi ilə Füzuli lirikasının Aşiq obrazlarını müqayisədə daha aydın görə bilərik. Maraqlıdır ki, Nəsimi qəzəllərinin əksəriyyəti də gözələ müraciətlə başlayır, o da gözəli mədh və idealizə edir. Amma Nəsiminin lirik qəhrəmanının məhəbbətə və gözələ münasibəti bir qədər fərqli xüsusiyyət daşıyır. Akademik Məmməd Arif yazır: *"Füzulidən fərqli olaraq Nəsimidə şüur, mühakimə hissə, ehtirasa üstün gəlir. Nəsimi lirikasında ehtiras ikinci plana keçir. Onun gözələ münasibətində heyranlıq, gözəli dərk etmək, layiqincə qiymətləndirmək meyli əsasdır. O, gözəli məftunluqla tərənnüm edir, onun cismani və mənəvi gözəlliyindən aldığı təəssüratı emosional bir qüvvə ilə ifadə edir. Nəsiminin gözələ (məşuqəyə) məhəbbəti gözəl insana məhəbbəti ilə şərtlənmişdir. O, qadını ilahiləşdirir, amma onu gözəl, yalnız bir şair kimi yox, eyni zamanda bir mütəfəkkir kimi də maraqlandırır. Onun üçün gözəl insan məhəbbətə layiq olmaqla bərabər, ehtirama da layiqdir, çünki insandır. O, sadəcə gözəl qadın deyil, bəlkə "üzü surəti-rəhman" olan insandır"* [9, s.14-15]. Aşağıdakı qəzəl dediklərimizə əyani missal ola bilər:

*Ləbinə əhli-nəzər çeşmeyi-heyvan dedilər,*
*Gərçi uçmaq hurisi cümlə ona can dedilər.*
*Səni bu hüsnü cəmal ilə, bu lütf ilə görən,*
*Qorxdular haq deməyə, döndülər insan dedilər.* [5, s.149]

Nəsimi poeziyasında insan Allaha bərabər tutulur. "Adəmdə təcəlli tapdı allah, qıl adəmə səcdə, olma gümrah" – deyir şair. Onun fikrincə, kamil insan yaranmışların ən şərəflisidir, bu insan haqqı – Allahı görən və özünü dərk edən insandır.

Divan ədəbiyyatının bu iki qüdrətli sənətkarı klassik poeziyamızın sonrakı inkişaf mərhələlərində yazıb-yaratmış şairlərin yaradıcılığına qüvvətli təsir göstərmişlər. Nəsimi yaradıcılığının Azərbaycan və Şərq ədəbiyyatına təsiri barədə ayrı-ayrı tədqiqatlarda müəyyən fikirlər

söylənilmişdir. Məsələn, nəsimişünas alim, professor Mirzağa Quluzadə "Böyük ideallar şairi" monoqrafiyasında yazır ki: *"Nəsimi şeirinin ənənələri yalnız Azərbaycan ədəbiyyatının deyil, bir sıra digər türkdilli xalqların bədii və ictimai fikrinin inkişafı üçün çox əhəmiyyətli olmuşdur. Bir çox görkəmli söz ustadları Nəsiminin insanpərvərlik lirikasında onun azadlıq meyilləri, dünyəvi məhəbbət və gözəllik mövzularındakı şeirlərində öz daxili-mənəvi aləmlərinə doğma fikirlər, ideyalar tapmışlar və Nəsimi şeirini məhəbbətlə oxumuşlar"* [6, s.90]. Nəsimi şeirinin təsir dairəsi bir neçə əsr ərzində davam etmiş, XV-XVI əsrlərdə yaşayıb-yaratmış şairlər onun poetik irsindən faydalanmışlar. Ədəbiyyatşünas Vəcihə Feyzullayeva "Nəsimi və Füzuli" məqaləsində bu iki şair arasındakı daxili bağlılığı, bədii-fikri əlaqəni nəzərə çarpdırmışdır. Vəcihə Feyzullayeva yazır: *"Nəsimi şeirlərindəki həyata baxış, dünyəvi məhəbbətin ifadəsi, insan gözəlliyinin tərənnümü iki əsr sonra Füzuli qələmində çox zəngin və geniş, daha konkret və real məna kəsb etmiş, dərin ictimai-fəlsəfi məzmunla cilalanmış, forma və bədii ifadə vasitələri ilə naxışlanmış, yüksək ehtirasla tərənnüm olunmuşdur"* [4, s.209]. Daha sonra tədqiqatçı Nəsimi və Füzulinin lirik şeirlərində ictimai-fəlsəfi motivlərin çox mühüm yer tutduğunu qeyd edir. Hər iki şairin əsərlərində yaşadıqları dövrün ən mühüm, ən aktual məsələləri öz əksini tapmışdır. Vəcihə Feyzullayeva onu da qeyd edir ki, nəinki fikir, düşüncə, hətta forma, vəzn, qafiyə, rədif və sənətkarlıq baxımından da bu iki sənətkar arasında oxşar cəhətlər vardır. Tədqiqatçının bu fikrini biz Nəsiminin bir neçə qəzəlinə Füzulinin nəzirə yazdığını göstərməklə isbatlaya bilərik:

*Səhərdə gül üzün, şaha, çü gülşəndə gülab oynar,*
*Onu görsə səfasından, fələkdə afitab oynar.*
*Əcəb zati-mütəhhərsən, nəzirin yoxdur, ey dilbər,*
*Vücudun nuri-bərqindən, cəmalında niqab oynar.* [5, s.164]

Nəsiminin "Oynar" rədifli bu qəzəli eşq nəşəsinin tərənnümü kimi diqqəti cəlb edir. Şair fələyin əksinə dövr elədiyi, bülbülün qəfəsdə, qarğaların isə çəmənlərdə uçmasına baxmayaraq, bu nəşənin "cümlə üşşaqi" sevincə qərq etdiyini xəbər verir. Fələkdə afitab belə bu zövqü səfanı görsə, oynamağa başlar. Tamamilə nikbin bir qəzəldir. Füzuli eyni rədifli qəzəlində Nəsimidən təsirlənib aşiqlə məşuqun zövqü-səfa dəmlərini qələmə alır:

*Səbadan gül üzündə sünbüli-pirpiçü tab oynar.*
*Sanasan pər açıb gülşəndə bir mişkin ğürab oynar.*
*Xəyali-arizin gövlan edər bu çeşmi-pürnəmdə,*
*Nəçük kim mövclənmiş suda əksi-afitab oynar.* [7, s.109]

Füzuli bu qəzəldə daha böyük ustalıq nümayiş etdirmiş, özünəməxsus ədəbi fəndlərdən yararlanmışdır: şair qara saçın gül üzdə oynamasını qara qarğanın gülşəndə oynamasına bənzədir, qarğa da qaradır, saç da. Yaşlı gözünü dalğalanmış suya bənzədir, bu suda günəşin əksi oynayır, gözdə isə gözəlin üzünün xəyalı cövlan edir. Sevgilisinin üzünü bahar əyyamına bənzədir, çünki bahar vaxtı bulud oynar, şimşək çaxar, bu şimşək şairin iç yanğısıdır. Bulud isə ürəyində çəkdiyi ahlardır. Ancaq bu qəzəldə bir beyt var ki, şairin dərdindən xəbər verir. Füzuli Quranın bir ayəsinə təlmih edir: ayədə deyilir ki, kafirlər o zaman cəhənnəmdən çıxa bilərlər ki, dəvənin boynu incəlib iynə ulduzundan keçsin. Yəni kafirlər heç vaxt cəhənnəmdən çıxa bilməyəcəklər. Füzulinin dərd yükü isə o qədər ağırdır ki, bunları dəvənin başına qoysalar, dəvə iynə ulduzundan keçəcək qədər kiçilər və kafirlər də cəhənnəmdən xilas olar. Göründüyü kimi, Füzuli mübaliğənin ən maksimal variantını seçmişdir. Aşiqin qəminin bu dərəcədə böyüdülməsinə klassik poeziyada çox nadir hallarda təsadüf edilir.

Ümumiyyətlə, bütün Şərq ədəbiyyatında olduğu kimi, klassik Azərbaycan poeziyasında da nəzirəçilik geniş yayılmışdı. Ərəb sözü olan nəzirə-bənzətmə, örnək deməkdir. Nəzirə əsas

əsərə həm məzmun, mövzu və ideya, həm də forma, vəzn, qafiyə, rədif, şəkil, janr baxımından uyğun olmalıdır. Nəzirə yazan müəllifin bədii istedadı əsas rol oynayır, belə ki, onun nəzirəsi bəzən orijinalı da ötüb keçir. Deyək ki, Məhəmməd Füzuli özünün "Leyli və Məcnun" əsərini Nizami Gəncəvinin "Leyli və Məcnun" məsnəvisinə nəzirə kimi yazsa da, öz ideya-bədii dəyərinə görə Nizami poemasından heç də geridə qalmır. Onu da qeyd edək ki, Şərq ədəbiyyatında 50-dən çox "Leyli və Məcnun" poeması qələmə alınmışdır, lakin Nizami və Füzulinin "Leyli və Məcnun"ları o əsərlərin hamısını kölgədə qoyur.

**İşin elmi nəticəsi:** Füzuli bir çox Şərq şairlərinin şeirlərinə nəzirələr yazmış və açıq etiraf etmək lazımdır ki, onun nəzirələri orijinallardan həm şəkil, həm də məzmunca güclü çıxmışdır. Məsələn, Füzuli Nəcatinin, Sürurinin qəzəllərinə nəzirələr yazmış və onun nəzirələri orijinalı ötüb keçmişdir. Azərbaycan şairlərinin əksəriyyəti isə Füzuli qəzəllərinə nəzirələr yazsalar da, Füzulini ötüb keçə bilməmişlər. Yalnız Seyid Əzim Şirvaninin Füzuli qəzəllərinə yazdığı bir neçə nəzirə az-çox orijinala layiqdir.

**İşin elmi yeniliyi:** Məqalədə orta əsr Azərbaycan poeziya məktəbinin nümayəndələrinin uğurları izlənilmişdir. Nizami, Nəsimi, Füzuli kimi şairlərin yaradıcılığında ədəbi estetikanın mahiyyəti də öyrənilmişdir.

**İşin tətbiqi əhəmiyyəti:** "Orta əsrlər Azərbaycan poeziya məktəbinin ədəbi-estetik uğurları və onların davam etdirilməsi" adlanan bu məqalə orta əsrlər Azərbaycan ədəbiyyatı ilə maraqlanan hər kəs üçün maraqlı ola bilər. Məqalədən müəllim və tələbələr yararlana bilər.

## Ədəbiyyat


1. Cəlal, Mir. Füzuli sənətkarlığı / Mir Cəlal. – Bakı: ADU, – 1958. – 276 s.
2. Əliyeva, G. Çağdaş poeziya və klassik irs / G.Əliyeva. – Bakı: Azərnəşr, – 2000. – 172 s.
3. Əlizadə, S. Şah beytlər: Füzuli "Divan"ına şərhlər / S.Əlizadə. – Bakı: Azərnəşr, – 1995. – 172 s.
4. Feyzullayeva, V. Nəsimi və Füzuli // – Bakı: İmadəddin Nəsimi. Məqalələr məcmuəsi. – 1973. – s. 205-217.
5. İmadəddin Nəsimi. Məndə sığar iki cahan / tərt. ed. C.Qəhrəmanov – Bakı: Gənclik, – 1973. – 273 s.
6. Quluzadə, M. Böyük ideallar şairi / M.Quluzadə. – Bakı: Elm, – 1973. – 138 s.
7. Məhəmməd Füzuli. Seçilmiş əsərləri / tərt. ed. və ön söz. Ə.Cəfər – Bakı: Yazıçı, – 1984. – 268 s.
8. Məmməd Cəfər. Seçilmiş əsərləri [3 cilddə] / tərt.ed. T.Fərzəliyev – Bakı: Çinar-Çap, – 2003. – c.1. – 360 s.
9. Məmməd, Arif. Mütəfəkkir şair // – Bakı: İmadəddin Nəsimi. Məqalələr məcmuəsi. – 1973. – s. 11-26.
10. Önər, V.B. Ən gülməli ölü / V.B.Önər. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 1998. – 321 s.
11. Səfərli, Ə. Xəlil Yusifli. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər tarixi) / Ə.Səfərli, X.Yusifli. – Bakı: Ozan nəşriyyatı, – 2008. – 696 s.
12. Səmədoğlu, V. Mən burdayam, ilahi... (Şeirlər və poema) / V.Səmədoğlu. – Bakı: Gənclik, – 1996. – 440 s.
13. Qarayev, Y. Seçilmiş əsərləri: [5 cilddə] / tərt. ed. Ş.Alışanlı, A.Bağırlı – Bakı: Elm, – 2015. – 664 s.


**A.B.Hasanov**

**Medieval Azerbaijan School of Poetry**
**Literary-Aesthetic Successes and Their Continuation**
***Summary***


If we consider the multi-century development of medieval Azerbaijani literature, both from the point of view of ideas and form, let's focus on the leading role of poetry skinny. In the history of the literature of the peoples of the world, the literature of the people of Azerbaijan has always been selected for its richness and humanistic ideas. Here, the main burden, the main weight has fallen on poetry. We are talking, of course, about medieval Azerbaijani poetry. Until the 19th century, that is, until the first examples of realistic prose appeared, the leading mission of poetry is an undeniable fact.

The inexhaustible power of poetry, the potential to say new words continued in the 19th and 20th centuries, and the vast majority of the artistic works that he contributed to world literature were mainly examples of poetry. While expressing this opinion, we should first of all mention the name of genius Nizami Ganjavi. Because Nizami is a great Azerbaijani poet who has contributed works of high artistic value to the treasury of world literature, he is one of the most powerful romantic artists of world literature. To be more precise, the author of "Khamsa" is a master artist who stands in line with the great representatives of world poetry such as Shakespeare, Dante, Goethe, Ferdowsi, Navai and others, and even surpasses them with some characteristics.

***Key words:*** *poet, tradition, Nizami, Nasimi, Fuzuli, poetry*

**А.Б.Гасанов**

**Средневековая азербайджанская школа поэзии литературно-эстетические успехи и их продолжение**

***Резюме***

Если рассмотреть многовековое развитие средневековой азербайджанской литературы, как с точки зрения идей, так и формы, то основное направление и тенденции этой литературы опирались на ведущую роль поэзии. В истории литературы народов мира литература азербайджанского народа всегда выделялась своим богатством и гуманистическими идеями, и здесь основная тяжесть и вес ложились на поэзию. Конечно, речь идет о средневековой азербайджанской поэзии, и неоспоримым фактом является то, что ведущая миссия поэзии вплоть до XI века, то есть до появления первых образцов реалистической прозы в нашей стране. Неисчерпаемая сила поэзии, возможность сказать новые слова сохранялись и в XIX и XX веках, и подавляющее большинство художественных произведений, которые он внес в мировую литературу, были в основном образцами поэзии. Выражая это мнение, прежде всего следует упомянуть имя гения Низами Гянджеви. Поскольку Низами – великий азербайджанский поэт, внесший в сокровищницу мировой литературы произведения высокой художественной ценности, он является одним из самых сильных художников-романтиков мировой литературы. Если быть точнее, то автор «Хамсы» – мастер-художник, стоящий в одном ряду с такими великими представителями мировой поэзии, как Шекспир, Данте, Гете, Фирдоуси, Наваи и другие, а по некоторым характеристикам даже превосходящий их.

***Ключевые слова:*** *поэт, традиция, Низами, Насими, Физули, поэзия*

*Rəyçi: filol.e.d., prof. T.Kərimli*

*Redaksiyaya daxil olub: 25.10.2024*